AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
XƏZƏR UNİVERSİTETİ

HASVET BAYTARLIQ TƏBABƏTİ FAKÜLTƏSİ
BAYTARLIQ TƏBABƏTİ DEPARTAMENTİ

ƏTRAF MÜHİTİN VƏ HEYVANLARIN GİGİYENASI
SİLLABUS

Tədris ili və semestri
2025/26-ci tədris ilinin payız semestri

Müəllim: Vüsal Abbasov

Razılaşdırılmışdır

Təsdiq edirəm

Dekan vəzifəsini icra edən :
DVM Çiçək Əliyeva

Ümumi məlumat	**Fənnin adı, kodu və kreditlərin sayı**	VET 321 Ətraf Mühitin və Heyvanların Gigiyenası	
	Departament	Baytarlıq Təbabəti	
	Proqram (bakalavr, magistr)	Bakalavr	
	Tədris semestri	2025/26-ci tədris ilinin payız semestri	
	Fənni tədris edən müəllim	Vüsal Abbasov	
	E-mail	Vusalabbasov8414@gmail.com	
	Telefon	(+994 50) 290 04 31	
	Mühazirə otağı/Cədvəl	Bakıxanov qəsəbəsi, Elşən Mehdiyev küç. 478.	
	Məsləhət saatı	Tələbələrlə razılaşmadan sonra vaxt təyin ediləcək	
Prerekvizitlər	Ətraf Mühitin və Heyvanların Gigiyenası- VET 321		
Tədris dili	Azərbaycan dili		
Fənnin növü	Məcburi		
Dərsliklər və əlavə ədəbiyyat	***Əsas dərsliklər:*** 1. Ə. Əsgərov - kənd təsərrüfatı heyvanlarının ümumi gigiyenası. Maarif 1981 2. A. H. Yusifov. Ç. Ə. Əhmədov. C.ə. Əsgərov. Ə.t.məmmədov – baytarlıq sanitariyyasının əsasları, bbk 37.6. Y -96. Azərnəşır, 2006 3. Water, sanitation, and hygiene in health care facilities practical steps to achieve universal access to quality care, Geneva, World Health Organization and UNICEF, 2018 [cited 1 March 2019]. Available from: http://www.who.int/water_sanitation_ health/publications/water-and-sanitation-for-health facility-improvement-tool/en. 4. Animal waste, water quality and human health isbn: 9781780401232 isbn: 9789241564519 (who) edited by Al Dufour, Jamie Bartram, Robert Bos and Victor Gannon. First published 2012 ©World Health Organization 2012 5. T.c. Anadolu üniversitesi yayini no: 3408 açiköğretim fakültesi yayini no: 2259 hijyen ve sanitasyon yazarlar dr.öğr.üyesi mustafa eser (ünite 1, 2) doç.dr. Gökhan kuş (ünite 3) prof.dr. Murat topbaş (ünite 4, 6, 7, 8) dr.öğr.üyesi Recep Kara (ünite 5) editör dr.öğr.üyesi Mustafa Eser. Copyright © 2016 by Anadolu University. ***Online vəsaitlər:*** -. *https://ktvhb.org/wp-content/uploads/2019/05/ciftlik-binalari-dizayni-ve-ciftlik-hijyeni.pdf* *https://www.thedairysite.com/articles/686/cleaning-and-sanitizing-milking-equipment* *https://extension.psu.edu/proper-milking-procedures* https://detrox.com. tr/veterinerlik-hijyeni-nedir		
Kursun vebsaytı	https://www.youtube.com/watch?v=xsLE0OIqqsY		
Tədris metodları	**Mühazirə**		x
	Seminar		x
	Qrup müzakirəsi		x
Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz (%)**
	Fəallıq	Semestr ərzində	10
	Tapşırıq və testlər (quiz 1,2,3)	Semestr ərzində	10
	Davamiyyət	Semestr ərzində	10
	Aralıq imtahanı		30
	Final imtahanı		40

	Yekun		**100**
Kursun təsviri	Ətraf mühit və heyvanların gigiyenası fənni - Heyvanların həyat şəraiti üçün elmi surətdə əsaslandırılmış optimal şəraitin yaradılması haqqında elmdir. O, ətraf mühit amillərinin qeyri-əlverişli təsirinin xəbərdar edilməsi və aradan qaldırılması, həmçinin onların insan və heyvan sağlamlığına əlverişli təsirindən istifadə etmək üçün tədbirlər hazırlayır. «Gigiyena» sözü yunanca «hygieinos» sözündən götürülmüş və mənası sağlamlıq gətirən deməkdir. Gigiyena sözünün yaranması qədim yunan ilahəsi Gigiyeyanın adı ilə əlaqədardır. Qədim yunana mifoloqiyasına görə sağlamlıq allahı Asklipiyanın iki qızı olub ki, bunlardanda ən məşhurları xəstəlik barədə xəbər verən Gigiyeya və xəstəliyi dərmalarla müalicə edən Panaseya olublar. Bu elm həyat şəraitinin sağlamlığa təsirini öyrənir, xəstəliklərin qarşısını almaq, insanın və heyvanların sağlamlığını qorumaq və mühafizə etmək üçün tədbirlər işləyib hazırlayır. .		
Kursun məqsədləri	***Ümumi məqsəd:*** Bu kursun məqsədi tələbələrə heyvandarlığın müxtəlif sahələrində tələb olunan gigiyenik standartları və qaydaları öyrətmək, gigiyena və ətraf mühitin qarşılıqlı əlaqəsini izah etməkdən ibarətdir ***Xüsusi məqsədlər:*** - Tələbələrin akademik potensialını aşkarlamaq, onları elmə həvəsləndirmək və onların öz potensiallarını realizə etməyə yardımçı olmaq. - Tələbələrə bioloji tədqiqatların hazırkı və gələcək elmin inkişafı üçün vacibliyini mənimsətməkdir. -Tələbələrin kursda iştirakını həvəsləndirmək, qarşılıqlı hörmət və anlayış mühitini təmin etmək.		
Tədrisin (öyrənmənin) nəticələri	**Kursun sonunda tələbələr nəyi biləcəklər:** - - Gigiyena və sanitariyanın predmeti vəzifələri - Qida gigiyenası - Qaramalın saxlanmasında ümumi gigiyenik tələblər - Qoyun binalarında tələb olunan minimun sanitar gigiyenik standartlar, açıq və qapalı tipli qoyunçuluq, intensiv və ekstensiv qoyunçuluq - Quşçuluqda gigiyenik tələblər - Yemçilikdə gigiyenik tələblər - Kəsin sexlərində gigiyenik tələblər - Havada tələb oluna gigiyenik tələblər Süda tələb olunan gigiyenik tələblər		
Qaydalar (Tədris siyasəti və davranış)	**<u>Dərsin təşkili</u>** - Fənnə aid ümumi xarakterli məlumatlar mühazirə zamanı tələbələrə çatdırılacaqdır. - Yeni mövzu əyani vasitələrin (PPT və video fayllar) nümayişi ilə izah ediləcəkdir. - Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri (***Quiz***) yoxlanılacaqdır. - Seminar məşğələləri zamanı tələbələrin əvvəlki mövzunu mənimsəmələri <u>Şifahi və yazılı sorğunun keçirilməsi</u> ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır (***Fəallıq***). **<u>Ümumi qaydalar</u>** **Davamiyyət** Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır. **Gecikmə** Dərsə 10 dəqiqədən artıq gecikən tələbəyə qaib yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. **Yoxlama işi (*Quiz*)** Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər. **İmtahanlar**		

	Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkündür. İctimai fəaliyyətlə əlaqədar imtahanlardan yayınma hallarına yol verilmir. İmtahanlar kumulyativ xarakterli olmalıdır. Aralıq və yekun imtahanların mövzuları tələbələrə imtahandan öncə verilir. Son imtahanda sualların əksəriyyəti aralıq imtahandan sonra keçirilmiş materialların əsasında tərtib olunur. **Tələbənin kursu başa vurması** 60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Əks halda tələbə bu kursu yenidən keçməlidir. **İmtahan qaydalarının pozuntuları** İmtahanlarda mövcud qayadaların pozulması (köçürmə cəhdləri, köçürmələr, imtahanın gedişini pozmaq və digər qanunsuz hərəkətlər) hallarında tələbənin imtahan işi ləğv olunur. **Dərslərdə davranış** Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri-etik davranışa qətiyyən yol verilmir. Tələbə dərsdə fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır. ***Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır.***

Həftə	Tarix/ Gün	Fənnin mövzuları	Dərsliklər/Tapşırıqlar
I.		**Mövzu № 1.**Sanitariya və gigiyenanın predmeti, vəzifələri. Gigiyena.	*Əsas dərslik: 1, fəsil -1.* *Dərslik: 5 bölmə 1*
II.		**Mövzu № 2.** Qida gigiyenasının inkişaf tarixi . Ölkədə sanitar xidmət, onun məqsədi və vəzifələri	*Əsas dərslik: 1, fəsil -1.* *Dərslik: 5 bölmə 5*
III.		**Mövzu № 3.** Qaramalın saxlanmasında ümumi gigiyenik tələblər, Doğum gigiyenası, dogumxanaya qoyulan gigiyenik tələblər.	*Əsas dərslik: https://ktvhb.org/wp-content/uploads/2019/05/ciftlik-binalari-dizayni-ve-ciftlik-hijyeni.pdf* *Dərslik: 5 bölmə 5*
IV.		**Mövzu № 4.** Sağım sistemləri və sağım zamanı gigiyenik tələblər. CİP və südün gigiyenası, sağım zamanı yelinə qulluq. Südün sanitar gigiyenik şəraitdə tədarükü.	*Əsas dərslik: https://www.thedairysite.com/articles/686/cleaning-and-sanitizing-milking-equipment, https://extension.psu.edu/proper-milking-procedures*
V.		**Mövzu № 5.** Qida təhlükəsizliyi, HACCP prinsipləri,mərhələləri və iqtisadi əhəmiyyəti.	*Əsas dərslik: 5 bölmə 5*
VI.		**Mövzu № 6**. Dezinfeksiya üsulları, növləri və vastələri. Kimyəvi dezinfeksiya maddələri və onların istifadəsi	*Əsas dərslik: 2. Səh 12.* *https://ktvhb.org/wp-content/uploads/201*

			9/05/ciftlik-binalari-dizayni-ve-ciftlik-hijyeni.pdf
VII.		**Mövzu № 7.** Otlaqlarda olan gigiyenik tələblər, yay və qışlaq otlaq sahələrinin seçilməsi	*Əsas dərslik: 1 fəsil: 6*
		Aralıq İmtahanı	
VIII.		**Mövzu № 8.** Təsərrüfatlarda fəaliyyət göstərən personala tələb olunan gigiyenik qaydalar. Baytar həkimin gigiyenası.Sağıcı gigiyenası. Heyvan baxıcısı gigiyenası	*Əsas dərslik:* https://www.fecava.org/wp-content/uploads/2019/03/FECAVA_Infectioncontrol_2018_LR.pdf Dərslik 5, bölmə: 6
IX.		**Mövzu № 9.** Heyvan daşıma vastələrinin zərərsizləşdirilməsi və gigiyenası. Quru, hava, su nəqliyyatı nın gigiyenası.	*Əsas dərslik: 2, səh: 127*
X.		**Mövzu № 10.** Hava mühitinə qoyulan gigiyenik tələblər. Havanın qaz tərkibi və gigiyenik əhəmiyyəti. Heyvan binalarında zərərli qazlarla mübarizə. Hava tempiraturunun gigiyenik əhəmiyyəti. Günəş şüaları və onun gigiyenik əhəmiyyəti. **Quiz 2**	*Əsas dərslik: 5, bölmə 7 Dərslik 1 fəsil 2*
XI.		**Mövzu № 11.** Torpağın gigiyenası və onun sanitariya mühavizə üsulları. Torpağın fiziki tərkibi və onun sanitariyada rolu. Torpağın udma qabiliyyəti. Torpağın bioloji xüsusiyyətləri. Torpağın sanitariya cəhətdən qiymətləndirilməsi	*Əsas dərslik: 1 fəsil 3*
XII.		**Mövzu № 12**. İçməli suya və su təhcizatına olan sanitar gigiyenik tələblər. Suyun fiziki kimyəvi göstəricilərinin gigiyenik əhəmiyyəti. Kənd təsərrüfatı heyvanlarında su təhcizatı. Çirkab suları. .	*Əsas dərslik: 1 fəsil 4. Dərslik 5 bölmə 4.*
XIII.		**Mövzu № 13.** İctimai binalarda gigiyenik qaydalar, binalarda gigiyena və sağlamlıq	*Əsas dərslik: 5, bölmə 6*
XIV.		**Mövzu № 14**.Kənd təsərrüfatı heyvanlarının yemləmə gigiyenası. Düzgün yemləmənin gigiyenik əhəmiyyəti. Yemlərə qoyulan gigiyenik tələblər.	*Əsas dərslik: 5, bölmə 5. Dərslik 1 fəsil 4*
XV.		**Mövzu № 15.** Yem anbarlarında zərərvericilərdən qorunma qaydaları. Yemlərin infeksion və invazion xəstəliklərdən qorunma qaydaları. **Quiz 3**	*Əsas dərslik: 1 fəsil 4*
Final İmtahanı			

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.